# Azadə NOVRUZOVA-50

Hörmətli Azadə xanım!

Sizi - istedadlı şair, publisisti yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1976-cı il yanvarın 19-da Qərbi Azərbaycanın Qarakilsə rayonunun Şəki kəndində anadan olmusunuz. Bakı Dövlət Universitetinin məzunusunuz. "Sən mənim ağ kitabım", "Yenə yadıma düşdün" adlı bədii əsərlərin, "Zəfər aşiqləri: Qarakilsə şəhidləri" ensiklopedik toplusunun, 10-dan çox biblioqrafik vəsaitin tərtibçisi və redaktoru, 300-dən çox elmi, publisistik məqalənin müəllifisiniz. Əsasən, Vətən mövzusundan, Qarabağ həqiqətlərindən, Xocalı soyqırımından bəhs edən bədii yaradıcılıq nümunələriniz rus, ingilis, ərəb, yapon, fars dillərinə tərcümə edilərək, Türkiyə, Rusiya, Ukrayna, İraq, İran, Misir və s. xarici ölkələrdə də çap olunub.

1997-ci ildən "Azərbaycan", "Ulduz" "Yada düşdü", "Füyuzat" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə, "525-ci qəzet"də, "Vedibasar", "XXI əsr Azərbaycan" və s. mətbuat orqanlarında, "Ədəbi körpü" (Təbriz)," İLESAM" (Türkiyə), İMBİK (Türkiyə) dərgilərində, "Karabağdan Kerkükden Çanakkaleyə, Türk Dünyası şiir seçkisi", "Korona tufan" (Türkiyə), "Ədəbiyyat və tənqid" (Misir, Qahirə), Международный альманах "Sun City" (Ukraynada) kimi toplularında mütəmadi olaraq elmi, publisistik məqalələriniz, şeirləriniz dərc olunur.

2020-ci ildə Qarabağ həqiqətlərini, erməni separatizmini dünyaya çatdırmaq məqsədilə, günahsız uşaqların qətlinə etiraz əlaməti olaraq yazdığınız və ingilis, rus dillərinə tərcümə edilmiş "Bu gecə yuxumda bir uşaq ağlayırdı" şeir əsasında Respublika Ombudsman Aparatında hazırlanmış videoçarxa və çarxın ölkəmizdən kənarda da geniş yayılmasının təşkilinə görə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən rəsmi təşəkkür almısınız.

2021-ci ildə Avrasiya Ədəbiyyat Hərəkatının (LİFFT) diplomuna, 2022-ci ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Türk Dünyası Ədəbiyyatına Xidmət Beynəlxalq mükafatına, 2023-cü ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Türk Dünyasının Fəxri Ziyalısı diplomuna, Kərkük Kültür Dərnəyinin İraq Türkmən Mədəniyyətinə göstərdiyi xidmətlərinə görə diploma, Azərbaycan Yazıçılar Birliyinin təqdimatı ilə Xüsusi təqaüd fondunun təqaüdünə layiq görülmüsünüz.

2022-ci ildə "Yenə yadıma düşdün" adlı şeirlər kitabınız Təbrizdə çap olunub.

2019-2023-cü illərdə Qərbi Azərbaycan İcmasının idarə heyətinin üzvü, sədrin humanitar məsələlər üzrə müavini olmusunuz. 2023-cü ildən Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının üzvü, Qarakilsə rayonu Şəki kəndinin İcma sədrisiniz.

1997-2000-ci illərdə dövri mətbuatda müxbir, 2000-2014-cü illərdə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Sorğu İnformasiya Xidməti şöbəsində böyük biblioqraf və İnformasiya xidməti bölməsinin müdiri vəzifələrində işləmisiniz, 2014-cü ildən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında çalışırsınız.



Türkiye İlim ve Edebiyat Eseri Sahibləri Meslek Birliyinin (İLESAM), Avrasya Sanat Kültür Edebiyat və Bilim Federasyonunun (ASKEF), Türkmən Ədəbiyyatı Yazarlar Birliyinin üzvüsünüz.

Hörmətli Azadə xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**